**Esmira Fuad**

*filologiya elmləri doktoru*

## 44 günlük Vətən müharibəsi Güney Azərbaycan ədəbiyyatında

II Qarabağ savaşı - Vətən müharibəsinə, xalqla dövlətin monolit birliyi və müzəffər Azərbaycan ordusunun rəşadəti sayəsində qazanılan unikal qələbəyə, Şuşa zəfərinə bir çox ədəbi-bədii nümunələr həsr olunub. Yeniyetmə və gənclərin hərbi-vətənpərvərlik ruhunun yüksəldilməsi işində önəmli bir addım olacaq “44 günlük Vətən müharibəsi Güney Azərbaycan ədəbiyyatında” adlı toplu da bu qəbildəndir.




Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi və Əbədi Turan Kitab Fondu İctimai Birliyinin təşkilatçılığı ilə “44 günlük Vətən Müharibəsinin Güney Azərbaycan Ədəbiyyatında fəaliyyətinin dəstəklənməsi” layihəsi çərçivəsində “44 günlük Vətən Müharibəsi Güney Azərbaycan Ədəbiyyatında” adlı toplu 2022-ci ildə çap olundu.

Vətən müharibəsinə, bu qutsal savaşın ədəbiyyata yansımasına həsr olunmuş “44 günlük Vətən Müharibəsi Güney Azərbaycan Ədəbiyyatında” toplusunun tərtibçisi və ön sözün müəllifi Esmira Fuaddır.

Topluda 44 günlük Vətən müharibəsinin qürürverici nəticələrindən, Azərbaycan xalqının və onun yetişdirdiyi cəngavər oğulların, müzəffər ordumuzun rəşadətindən, dünya hərb sənətində yeni səhifə olan Şuşa zəfərindən danışılır. Əsgər və zabitlərimizin döyüşlərdə göstərdiyi qeyri-adi qəhrəmanlıqlar, xalqla dövlətin monolit birliyi işğal altında olan torpaqlarımızın düşmən əsarətindən azad edilməsi, II Qarabağ Müharibəsinin, qutsal savaşın yaşatdığı qürür hissləri Güney Azərbaycan Ədəbiyyatından da yan keçmədi və yazarlar tərəfindən mövzu ilə bağlı yeni-yeni əsərlər qələmə alındı.